**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



**Azərbaycan saz, söz sənətinin böyük nümayəndəsi**
**Aşıq Ələsgərin anadan olmasının 190**
**illik yubileyi münasibətilə**

# Təbiət aşiqi, gözəllik nəğməkarı.
**(metodik vəsait)**

**B A K I – 2011**

## I Bölmə: Həyat və yaradıcılığı:

**Yüz il dövran sürən aşıq Ələsgər,**
**Min-min məclislərə yaraşıq oldu.**
**Çoxları saz tutub gəlib-getdilər,**
**Ələsgər zülmətdə gur işıq oldu.**

Kökü çox-çox qədimlərdən şirə çəkən Azərbaycan aşıq sənətinin on doqquzuncu yüzillikdən azman ustadları sırasında aşıq Ələsgərin yeri ayrıcadır. Onun bulaq kimi çağlayan coşqun ilhamından bizlərə yadigar qalan saz-söz inciləri neçə qərinədir ki, xalqımızın dilində əzbərdir. Dədə Ələsgərin könüllər bəzəyən qoşmaları, şaqraq gəraylıları, dərdlərə məlhəm təcnisləri hər zaman saz-söz məclislərimizin yaraşığıdır.

Qədim Azərbaycan mahallarından birində indi yağılar əlində qalmış ulu Göyçədə göz açıb, saz sehri, söz tilsimiylə bütün Qafqazı, Türkiyə və İranı heyrətdə qoyan Aşıq Ələsgər Dədə Qorquddan, Qurbanidən, Tufarqanlı Abbasdan, Xəstə Qasımdan üzü bəri xalq arasında böyük şöhrət qazanmış ustadlar cərgəsinə qoşula bilmişdir. Möhtəşəm saz sənətinin incəliklərinə dərindən bələd olmaqla yanaşı, o, aşıq adının, ustad hörmətinin uca tutulub xətirli saxlanılmasında əvəzsiz xidmətlər göstərmişdir.

**Aşıq olub diyar-diyar gəzənin**
**Əzəl başdan pürkamalı gərəkdi.**
**Oturub durmaqda ədəbin bilə,**
**Mərifət elmində dolu gərəkdi.**

Saflıq, doğru-dürüstlük, halallıq ölçülərini həyat və sənət amalına çevirən böyük aşığın ustad kəlamları hər zaman dəyərli və tutarlı öyüd-örnəklərdir.

**El içində düz otura, düz dura,**
**Dalısınca xoş sədalı gərəkdi!**

Ələsgər şeiri Azərbaycan ruhunun güzgüsüdür. Doğma torpağa bağlılıq, ana yurdun axar-baxarlı gözəlliklərinə vurğunluq, alın tərindən nur alan güzəran şirinliyinə heyranlıq, mərdlik, sədaqət, dünyasının şah damarıdır. Babalarımızın vüqar, ucalıq yerində tərifə mindirdiyi başı qarlı ulu dağlarımız da elə bu səbəbdən Ələsgər sazından əzəli və əbədi bir vətən sevgisi kimi boy göstərir. Özü də bu dağlarda Azərbaycan ellərinin hay-haraylı, çal-çağırlı binələri, bərəkətli ağacları, qonaq-qaralı oymaqları baş-başadır. Oradakı durna gözlü bulaqlar aşığın, hər bir sözündə, səsində çağlayır.

**Xəstə üçün təpəsində qar olur,**
**Hər cür çiçək açır, aləzar olur.**
**Çeşməsindən abi-həyat car olur,**
**Dağıdır möhnəti, məlalı dağlar.**

Elə bil ki, Dədə Ələsgər candan əziz bildiyi Göyçə dağlarının nə vaxtsa əldən çıxıb yad-yağılara qismət olacağından duyuq düşübmüş. Azərbaycan

torpağının qaymağı olan Göyçə yaylaqlarının eldən ayrı düşəcəyinin xiffətini, ağrısını ustad sənətkar necə də uzaqgörənliklə söyləyib.

**Hanı mən gördüyüm qurğu-büsatlar?**
**Dərdməndlər görsə, tez bağrı çatlar.**
**Mələşmir sürülər, kişnəşmir atlar.**
**Onçu pərişandı halların, dağlar!..**

Çox gəzib, çox görüb, çox öyrənən Dədə Ələsgər özü demişkən, “hər elmdən halı” sənətkardı. Dövrünün şeir, sənət ,eləcə də şərq fəlsəfəsi və islam dini ilə bağlı biliklərə dərindən yiyələnməsi onun yaradıcılığında aydın şəkildə görünür. Ətraflı məlumata və geniş təssəvvürə malik olması sayəsində Tufarqanlı Abbas, Xəstə Qasım kimi böyük sənətkarların yüz illər boyu kilidli qalan bir çox qıfılbənd və bağlamalarını məhz Aşıq Ələsgər aça bilmişdir. Özünün düzüb qoşduğu qıfılbənd, divani və müxəmməslərdə  o, elmi məlumatları qüdrətli istedadı ilə qovuşduraraq əvəzsiz ağıl və könül inciləri yaratmışdır.

Ustadın sinəsində çağlayan müdriklik çeşməsindən haqq-ədalət yoluna çağırış, mehribançılıq, böyüyə ehtiram, dost-yoldaş, qohum-qonşu arasında səmimiyyətə səsləyən öyüdlər axır.

**“Can” deməklə candan can əskik olmaz,**
**Məhəbbət artırar, mehriban eylər.**
**“Çor” deməyin nəfi nədi dünyada?!**
**Abad könülləri pərişan eylər.**

Abad könülləri pərişan eyləmək, dünyanı düzlüyə səsləmək, haqqı nahaq, mərdi namərd ayağına verməmək Ələsgər şeirlərinin başlıca qayəsi idi. Ələsgər şeirində Azərbaycan torpağı, Azərbaycan ruhu kimi Azərbaycan dilinin  incəlikləri də özünəməxsus bir gözəlliklə cilvələnir. Canlı el danışığının bütün şəhdi-şəkəri, aşığın şeir dilinə bulaq saflığı, bal şirinliyi gətirmişdir. Ana dilinin incə çalarları hesabına ərsəyə gələn təcnisin cığalı, dodaqdəyməz, dildönməz kimi nadir incilərini Dədə Ələsgər Azərbaycan dilinin dərin qatlarına baş vuraraq yaratmışdır.

**Qışda dağlar ağ geyinər, yaz qara,**
**Sağ dəstinlə ağ kağıza yaz qara.**
**Əsər yellər, qəhr eyləyər yaz qara,**
**Daşar çaylar, gələr daşlar çata-çat.**

Əsrarəngiz təbiətimizin göz oxşayan yaraşığından tutmuş el gözəllərinin vəsfini, mərd igidlərin tərifini saz-söz sehriylə ucalardan ucalara qaldıran böyük ustadın ilk kəlməsindən son kəlamınacan bütün söz dünyasında Azərbaycan ruhunun və Azərbaycan dilinin saflığı hakimdir. Əzəmətli aşıq Ələsgər sənətini yüzillikləri fəth etməyə aparan da onun bağrındakı saf və yenilməz xalq qüdrətidir.

## II Bölmə: Yubiley tədbirlərinin keçirilməsi

Aşıq poeziyası və aşıq sənəti Azərbaycan xalqının bədii təfəkkürünün parlaq və zəngin bir sahəsidir. Ədəbiyyat və incəsənət xəzinəmizin qiymətli incilərindən olan aşıq sənəti öz mahiyyəti etibarı ilə həmişə xalq həyatına yaxın olmuş, müxtəlif tellərlə xalqın gündəlik mübarizəsi və mənəviyyatı ilə bağlanmışdır. Həmişə xalqla qırılmaz əlaqədə olan aşıq yaradıcılığı həyatın və zəmanənin tələblərinə uyğun inkişaf edərək müxtəlif mərhələlərdən keçmiş, bəzən parlayıb çiçəklənmiş, bəzən süquta uğramış, bir dövrdə kamil ustalar yetirdiyi halda, başqa bir dövrdə orta səviyyədən yuxarı qalxa bilməyən şəxsiyyətlərlə kifayətlənmişdir. Aşıq sənətinin yüksəlişi və intibah mərhələləri bir qayda olaraq böyük, ustad aşıqların və qüdrətli xalq dastanlarının yaranması ilə bağlı olmuş, xalqımızın bədii fikir tarixinin yeni mərhələsi kimi qeyd olunmuşdur. Qurbani (XVI əsr), Tufarqanlı Abbas (XVI-XVII əsrlər), Xəstə Qasım, Aşıq Valeh (XVIII əsr), Dilqəm, Molla Cuma, Aşıq Hüseyn Şəmkirli (XIX əsr), Aşıq Ələsgər, Çoban Əfqan, Aşıq Hüseyn Bozalqanlı (XIX-XX əsrlər) və nəhayət Aşıq Əsəd, Aşıq Mİrzə, Aşıq Şəmşir və bu kimi aşıqların yaradıcılığı aşıq sənətinin yüksəliş dövrlərini ifadə edir. Onların içində aşıq sənəti çərçivəsindən kənara çıxaraq Azərbaycan və dünya ədəbiyyatının klassik simaları ilə yanaşı duran şəxsiyyətlər də vardır. Əlbəttdə ki, bu barədə danışılanda birinci olaraq hamımız Abbas Tufarqanlını və xüsusən də Aşıq Ələsgəri xatırlayırıq.

Ələsgər poeziyası xalq ruhunun, milli düşüncə və təfəkkürümüzün parlaq ifadəsidir. Şeirləri dillər əzbəri olan, o taylı-bu taylı Azərbaycanda, ümumən Türk dünyasında sevilən bu qüdrətli saz şairinin ədəbi irsinə dövlət səviyyəsində həmişə diqqət göstərilmişdir. 2004-cü il dekabr ayının 20-də Heydər Əliyev adına sarayda ustad sənətkarın anadan olmasının 180 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilmişdir.

Bu il görkəmli saz-söz ustadları Aşıq Ələsgərin anadan olmasının 190, Aşıq Alının isə 210 illiyi tamam olur. Bu münasibətlə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Azərbaycan Aşıqlar Birliyinin təşəbbüsü ilə 2011-ci il “Aşıq Ələsgər ili” elan edilmiş və silsilə tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdır. Bu da dövlətimizin Aşıq Ələsgər yaradıcılığına və ümumiyyətlə saz-söz sənətinə diqqət və qayğının təzahürü idi.

Aşıq Ələsgər klassik ədəbiyyatımızın qaynaqlarından şirə almış, zəngin aşıq sənətini dərindən-dərinə mənimsəmiş, böyük bir novator sənətkar kimi onu yeni mərhələyə qaldıra bilmişdir. Beləliklə, bu il yubileyinə hazırlaşdığımız, sənət aləmində özünə əbədi heykəl ucaltmış sənətkarlardan biri də Aşıq Ələsgərdir. Bu münasibətlə respublikamızın hər bir müəssələrində kitabxanalarda, məktəblərdə, lisey və gimnaziyalarda bir sözlə aşıq sənətinə qiymət verən dövlət müəssələrində tədbirlər planı hazırlanmışdır. Həmçinin, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da belə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin siyahısına foto sərgisini, kitab sərgisini, aşıq sənəti ilə bağlı kitab müzakirəsini, ədəbi-bədii gecəni bə başqa tədbirləri daxil etmək olar. Əvvəlcə kitabxanada Aşıq Ələsgərin foto sərgisini, sonra isə Aşıq Ələsgərin kitablarını bir sözlə aşıq sənəti ilə bağlı olan bütün kitabların sərgisini təşkil etmək olar. Sərgi

müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, “Sazın əbədiyyət yolu”, “Saz-söz ustadı”, “Aşıq Ələsgər-190”, “Aşıq sənəti və Aşıq Ələsgər”, “Xatirələrdə yaşayan sənətkar”, “Ələsgərəm, hər elmdən halıyam...” və s. İndi isə sərginin sxemini nümunə üçün veririk:

1. Başlıq.

**Aşıq Ələsgər-190.**
**Foto-stend.**

2. Kitablarının nümayişi.
3. Dövrü mətbuatda çap olunan materialların nümayişi.
4. Görkəmli insanların Aşıq sənəti və Aşıq Ələsgər haqqında söylədikləri sitatlar.
5. Şeir parçası.

**Aşıq olub tərki-vətən olanın**
**Əzəl başdan pürkamalı gərəkdi.**
**Oturub durmaqda ədəbin bilə,**
**Mərifət elmində dolu gərəkdi.**

**Sitatlar:**

1. Aşıq Ələsgərin yaradıcılığı Azərbaycan poetik fikrinin inkişafında parlaq və gözəl bir səhifədir ki, o, insanın ürəyində doğrudan da çox nəcib duyğular oyadır, insana böyük zövq və ləzzət verir.

**Mirzə İbrahimov**
**Xalq yazıçısı**

2. Aşıq Ələsgərin yaradıcılığında insan gözəlliklərinin təsviri və tərənnümü xüsusi yer tutur.

**İslam Ələsgər**
**Filologiya elmləri namizədi**

3. Gözəllik nəğməkarı olmuş ustad aşığın dastan yaradıcılığına münasibəti həm dastan yaradıcılığı üsullarının öyrənilməsi, həm də aşığın sənətə verdiyi ictimai-siyasi əhəmiyyətin ifadəsi kimi maraqlı və qiymətlidir.

**Şamxəlil Məmmədov**
**Pedaqoji elmlər namizədi**

4. Dədə Ələsgərin yaradıcılığını türk xalqının ensiklopediyası adlandırmaq olar.

**Tamilla Əliyeva**
**Filologiya elmləri namizədi**

Azərbaycanın böyük xalq sənətkarı, mütəfəkkiri Aşıq Ələsgərin yubileyinin keçirilməsi bir tərəfdən ustadın zəngin yaradıcılığından ilham alıb bugünkü sosial-mənəvi ehtiyacımızı ödəməyə kömək edirsə, digər tərəfdən, həmin yaradıcılığın hərtərəfli öyrənilib lazımi səviyyədə təbliğ olunması üçün geniş imkanlar açır. Bu baxımdan da Aşıq Ələsgər yaradıcılığının dərindən öyrənilməsi üçün kitabxanada orta və böyük yaş qrup oxucular arasında söhbətin keçirilməsi daha məqsədəuyğun olardı. Söhbəti kitabxanaçı belə başlaya bilər:

“Əziz, uşaqlar, bildiyiniz kimi, Aşıq Ələsgəri zaman bizdən çox ayırmasa da, onun yüz əlli ildən artıq davam etmiş həyatı barədə çox şey bildiyimizi deyə

bilmərik. Əslində isə bildiklərimizin də çoxu təxminidir. 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində kasıb bir ailədə doğulmuş, yeniyetməlik çağında nökərçilik etmiş, 17-18 yaşlarından isə qızılvəngli ustad aşıq Alıya şəyird olmuşdur. Lakin çox keçmədən özü də ustad aşıq kimi sərbəst fəaliyyətə başlamış, ondan artıq şəyird yetişdirmişdir. Aşıq Ələsgər Göyçə, Kəlbəcər, Naxçıvan, Dərələyəz, Şərur, İrəvan, Qarabağ, Şınıq, Gəncə, Şəmkir, Qazax, Borçalı və b. mahallarda ağır toylar, məclislər keçirmiş və bununla da böyük hörmət-izzət qazanmışdır. Özü isə şeirlərinin birində belə qeyd etmişdir:

**Yaxşı hörmətinən, təmiz adınan**
**Mən dolandım bütün Qafqaz elini.**
**Pirə ata dedim, cavana qardaş,**
**Ana, bacı bildim qızı, gəlini.**

Aşıq Ələsgərin xalq arasında böyük nüfuza malik olmasının bir səbəbi onun haqdan gələn qeyri-adi, tükənməz istedadı, müdrikliyi, mənəvi möhkəmliyi yüksək ədəb-ərkanı idi.

**Aşıq olub tərki-vətən olanın**
**Əzəl başdan pürkamalı gərəkdi.**
**Oturub durmaqda ədəbin bilə,**
**Mərifət elmində dolu gərəkdi.**

Müasirləri xatırlayırlar ki, "Ələsgər ucaboy, enlikürək, bədəncə çox sağlam, çox da qüvvətli bir insan idi. Qara gözləri, qalın, qara çatma qaşları, dolu sifəti, iri burnu vardı. Əyninə uzun ətəkli arxalıq, üstündən çuxa, ayağına məst geyər, başına buxara papaq qoyardı. Həmişə başını qırxdırar, üzündə xətt saxlardı. Həmişə sazı sol əli ilə çalar, zil səslə oxuyardı". Aşıq Ələsgər istər özündən əvvəl, istərsə də özündən sonra heç bir xalq şairi, aşığı ilə müqayisə olunmayacaq qədər müxtəlif janrlarda əsərlər yaratmışdır. Ustadnamə, zəncirləmə, gəraylı, varsağı, təcnis, qıfılbənd, həcv, hərbə-zorba, şikayətnamə, dodaqdəyməz, dildönməz, divani, müxəmməs, müqəddəs, qəzəl, deyişmə v. s.

Aşıq Ələsgər yaradıcılığı mövzu baxımından çox rəngarəngdir. O, Vətənin gözəllərini necə ilhamla tərənnüm edirdisə, Vətənin igidlərini də o cür qürurla tərifləyir, onların mərdliyindən vəcdə gəlir, şəninə dastanlar yazırdı. O, həmçinin, dastan yazmaqla kifayətlənmir, şəyirdlərindən tələb edir ki, həmin dastanları hər yerdə oxusunlar, yaysınlar. Həmçinin Aşıq Ələsgər M.P.Vaqif kimi gözəlliyi, gözəlləri öz dastanlarında həmişə tərənnüm edirdi. Dastanlarında yer alan Gülpəri, Müşgünaz, Güllü, Gülxanım, Güləndam, Salatın, Telli, Şəkər, Nənəpəri həmin gözəlllərin hələ tam olmayan siyahısıdır. Qeyd etdiyimiz kimi, Aşıq Ələsgərin gözəllik barəsindəki təsəvvürü daha genişdir. Onun Vətənin gözəlliyi, təbiəti haqqında yazdığı dastanlar daha çox diqqəti cəlb edir. Məsələn, Dəlidağ, Şəki, Kəlbəcər, Qarabağ, Şirvan, Qoşqar, Muğan, Göyçə, Xaçın, Narışdar, Murov, Çilgöz, Uzunyoxuş və s.

Əziz uşaqlar, Aşıq Ələsgər barəsində xalq arasında çoxlu əfsanələr, rəvayətlər dolaşır, lakin onların heç də hamısı dastanlaşa, mükəmməl sənət əsəri səviyyəsinə qalxa bilməmişdir. Bunun da əsas səbəbi onda idi ki, əsrimizin əvvəllərindən sonra zaman artıq dastan zamanı deyildi. Ancaq bütün bunlara baxmayaraq, Aşıq Ələsgər böyük bir məktəb yaratdı. Bu böyük məktəbdə onlarla

gözəl sənətkarlar, müasir aşıq sənətini irəli aparanlar  yetişdi. Amma indi Aşıq Ələsgərin onun məktəbinin pərvəriş tapıb qarış-qarış gəzdiyi torpaqlar Göyçə, Zəngəzur, Dərələyəz, Qaraqoyunlu, Kəlbəcər, Qarabağ bu gün düşmən əlindədir. Və bu düşmən yalnız torpaqlarımızı tutaraq əhalimizi didərgin salmamış, həm də mənəvi-estetik dünyamızda təcavüz etmiş, böyük tarixi olan etnik-mədəni bir mühiti dağıtmışdır-aşıq Ələsgər mühitini. Sonda, qeyd etmək istəyirəm ki, gün gələcək Azərbaycan xalqı Aşıq  Ələsgərin yubileyini öz doğma torpaqlarımız olan Kəlbəcər, Göyçə elində keçirəcək. Qoy bundan sonra Aşıq Ələsgər ruhu  nigaran qalmasın."

Kitabxanada keçiriləcək tədbirlərin siyahısına görüşü də daxil etmək olar. Beləki, kitabxanaçı Aşıq Ələsgərin 190 illik yubileyinə tanınmış şair, Milli məclisin deputatı Zəlimxan Yaqubu, Aşıq Ələsgər irsinin toplanıb nəşr edilməsində şifahi ədəbiyyatımızın ən yaxşı naşirlərindən biri olan Hümmət Əlizadəni, Aşıq Ədaləti, Aşıq Zülfiyyəni, Aşıq Tellini və  "Aşıq Pəri" məclisinin bir qrup tanınmış aşıqlarını oxucularla görüşə dəvət edə bilər. Kitabxanaçı Aşıq Ələsgərin zəngin yaradıcılığından bir qədər söhbət edəndən sonra sözü tanınmış şair, Aşıq sənətinin vurğunu olan Zəlimxan Yaquba  verir. Zəlimxan Yaqub öz növbəsində oxuculara Aşıq Ələsgər haqqında bir qədər geniş məlumat verir. Sonra çıxış üçün söz növbəti qonaqlara verilir.

Kitabxanada keçiriləcək tədbirlərin siyahısına şeir müsabiqəsini də daxil etmək olar. Kitabxanaçı əvvəlcədən hazırladığı elanı hazırlayır. Elanda yuxarı sinif şagirdlərindən yaxşı şeir demək bacarığı olan uşaqların iştirak etməsi qeyd olunur. Müsabiqədə yaxşı şeir deyən uşaqlar kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılırlar.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərin siyahısına ədəbi-bədii gecəni də daxil etmək olar. Beləki, ədəbi-bədii gecənin keçirilməsi oxucuların yaddaşında silinməz izlər buraxır. Çünki, belə tədbirlərə yubiliyarın sənət yoldaşları, onu daima xatırlayanlar təşrif buyururlar. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirə kitabxanaçı 2 ay qabaqcadan hazırlaşır. Bura Aşıq Ələsgərin yaradıcılığını yaxından izləyən aşıqlar, sənət adamları və s. qonaqlar dəvət olunur.

**"Saz-söz ustadı Aşıq Ələsgər"** adlı başlıq divardan asılır. Səhnə gül-çiçəklə bəzədilir. Səhnənin önündən Aşıq Ələsgərin şəkli asılır. Tədbir musiqi sədaları altında başlayır. Aparıcılar səhnəyə daxil olurlar.

I aparıcı: Əziz və hörmətli qonaqlar! Bildiyiniz kimi, aşıq poeziyasının görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin aşıq şeirimizin inkişafında, onun ideya-məzmun və bədii sənətkarlıq cəhətdən zənginləşməsində müstəsna xidmətləri vardır.

Yüz səksən il bundan əvvəl göyçəli Alməmməd kişi dünyaya göz açan körpəsinin bütün nəslinin adını əbədiyyətə qovyşduracağını, yəqin ki, ağlına belə gətirməzdi. Oğlu Ələsgəri oxutmağa imkanı olmayan Alməmməd kişi maddi çətinliklər cəhətindən onu Kərbəlayı Qurban adlı varlı şəxsə nökərçiliyə vermiş və  Ələsgər 4 il onun yanında qalmışdır. Ələsgər bu illər ərzində qızılvəngli Aşıq Alıdan aşıqlıq

sənətinin sirlərini öyrənmiş, el-el, oba-oba gəzərək çoxlu toy məclisləri aparmış, hər yerdə özünün yüksək ədəb və mərifəti, gözəl səsi, bənzərsiz ifası ilə məclisdəkiləri heyran qoymuşdur.

*(Oxucular səhnəyə daxil olur. Aşıq Ələsgərin "Xoş Gəldin" gəraylısını söyləyirlər)*

II aparıcı:

Qədəm qoyub asta-asta,
Sən bu diyara, xoş gəldin!
Süzdürüb ala gözləri.
Qaşları qara, xoş gəldin!

Oğrun durub, qıya baxdın,
Müjganın sinəmə çaxdın,
Cismimi yandırıb yaxdın,
Alışdım nara, xoş gəldin!

Qaynayıb, peymanım dolub,
Saralıb gül rəngim solub,
Həsrətin çəkməkdən olub,
Sinəm sədpara, xoş gəldin!

Dostun vəfasını gördüm,
Seçib, sevib, könül verdim,
Təzələndi köhnə dərdim,
Dərdimə çara, xoş gəldin!

Sinəmdi eşqin dəftəri,
Sənsən dilimin əzbəri,
Yazıq Aşıq Ələsgəri,
Çəkməyə dara, xoş gəldin!

I aparıcı: İlk məhəbbətini unuda bilməyən Ələsgər 40 yaşına qədər subay qalmış, sonra Kəlbəcərli Anaxanım adlı bir qızla ailə qurmuşdur. Aşıq Ələsgər xüsusi təhsil ala bilməmişdir. O, aşıqlıq sənətinin sirlərini kənd camaatının içində, el sənətkarlarının və ağsaqqallarının yanında öyrənmişdir. Aşıq Alının Ələsgəri tapması da, onu özünə "şəyird" götürməsi göyçə toylarının birində baş verən bir hadisədir. Cavan aşıqları toylarda sınaqdan keçirən Aşıq Alı Ələsgərin bədahətən söylədiyi qoşmaları eşitdikdən, onun sazına qulaq asdıqdan sonra onu özünə "şəyird" götürüb özü ilə Qızılvəng kəndinə aparır. Bundan sonra Ələsgər Aşıq Alının yanında şagird olmuş, aşıqlıq sənəti ilə bərabər ədəb, mərifət qaydalarını da öyrənmişdir. Elə buna görə də ustadına saz-söz yarışmasında

qalib gəldiyi bir vaxtda "bir şagird ki, ustadına kəm baxa, onun gözlərinə qan damar"- deyib ona öz hörmətini bildirib.

II aparıcı: İndi isə əziz qonaqlar, gəlin bir qədər də Aşıq Ələsgərin məzəli əhvalatlarına qulaq asaq.

*(Oxucular söyləyir)*

I Oxucu: Bir gün Aşıq Ələsgər başında iri bir papaq məclisə gəlir. Aşığın bəy dostlarından biri onun papağına sataşmaq məqsədilə deyir:

Aşıq qardaşın varmı?

Aşıq Ələsgər arif olduğu üçün mətləbi o saat başa düşür:

Var, amma heyf, onun papağı mənimkindən də iridir.

II Oxucu: Rəvayətə görə, Aşıq Ələsgərin arvadı Anaxanım əri ilə tez-tez dalaşarmış. Yenə soyuq qış günlərinin birində aşıq arvadını danlamış, o da küsüb evdən getmişdi. Aşıq oğlu ilə səhərə qədər arvadını axtarmış, lakin onu tapa bilməmişdir. Arvadının sağ-salamat olduğunu bilincə aşıq sevinmiş və məzahla dolu "Salamatdı" qoşmasını demişdir:

Çox obadan, ağır eldən keçibdi,
Pələng, əjdahalı koldan keçibdi,
Coşqun dərya, daşqın seldən keçibdi,
Öldürməyib boran, qar salamatdı.

I Aparıcı: Belə rəvayət edirlər ki, Aşıq Ələsgər son nəfəsində onun üstündə Quran oxuyan mollanın səhvini düzəldir və bu onun yanındakıları heyrətə salır. Aşıq Ələsgərin ölümü bütün şeir, sənət həvəskarlarının dərin kədərinə səbəb olur. Həmin ağır günlərdə aşığın yaxın dostu Zodlu Abdulla xalqın qəmini, hüznünü belə ağlar bir dillə söyləmişdir:

Dağlar qan ağlayır düşüb borana,
Daha bundan sonra çətin yarana.
Göyçə qana batsın, qaldı virana,
Daha Ələsgər tək ad alan varmı?!

II Aparıcı: Bütün həyatı toylarda, şadlıqlarda keçən aşıq ömrünün sonlarında evdə oturmaqdan darıxır, qocalıqdan, xəstəlikdən şikayətlənirdi. O, tez-tez keçmiş günləri xatırlayır, dünya, həyat barədə düşünüb kədərlənirdi:

Səksəni, doxsanı keçibdir yaşım,
Əzrayıl həmdəmim, məzar yoldaşım.
Gor deyə tərpənir bəlalı başım,
Daha köç təblini çal, qoca baxtım.

I Aparıcı: Beləliklə, Aşıq poeziyasının görkəmli nümayəndələrindən olan Dədə Əlsgər 105 il ömür sürdükdən sonra, Ağkilsə kəndində 1926-cı il mart ayının 7-də gözlərini əbədi yummuş və bu torpaqda da dəfn edilmişdir.

II Aparıcı: Bundan sonra Aşıq Ələsgərin ölümü bütün şeir, sənət həvəskarlarının dərin kədərinə səbəb olmuşdur. İndi isə Aşıq

Ələsgərin pərvəriş tapıb qarış-qarış gəzdiyi torpaqlar Göyçə, Zəngəzur, Dərələyəz, Qaraqoyunlu, Kəlbəcər, Qarabağ bu gün düşmən əlindədir. Və düşmən bu gün də yalnız torpaqlarımızı tutaraq əhalimizi öz yurd-yuvalarından didərgin salmamış, həm də mənəvi-estetik dünyamızda təcavüz etmiş, böyük tarixi olan etnik-mədəni bir mühiti dağıtmışdır. Bu da Aşıq Ələsgər mühitidir.

**S O N**

## İstifadə olunan ədəbiyyat siyahısı:

İnternetdə:

www.adam.az.
www.google.az

Kitabları:

1. Aşıq Ələsgər. Əsərləri: Şeirlər, dastan-rəvayətlər .- Təkrar nəşr .- Bakı: Şərq-Qərb, 2004. - 400 s.
2. Aşıq Ələsgər. Şerlər, dastan-rəvayətlər, xatirələr.- Bakı: Çinar-çap, 2003.- 496 s.

Dövrü mətbuatda:

1. A.Ələsgər Düşdü. Gördüm. Dəyməmiş. Yanə-yanə. Yaylaq. Gözəl / Aşıq Ələsgər // Azərbaycan. - 2006. - №8. - S.3-6.

Dövrü mətbuatda haqqında:

1. N. Azər. Aşıq Ələsgər-şerin ən uca zirvələrindən boylanan sənətkar / A.Nuriyev // Kaspi.- 2011.- 3 iyun.- № 97.- S. 12.
2. S. Fəxrəddin. Bir ozanın bəxti: Aşıq Ələsgər haqqında / F. Salim // Kaspi.- 2011.- 9 fevral.- № 24.- S. 13.
3. Ə.İslam. Ustadlar ustadı: Aşıq Ələsgər - 190 / İ. Ələsgər // Respublika.- 2011.- 14 aprel.- № 75.- S. 6
4. A.Qədir**.** Aşıq sənətinin korifeyi: Aşıq Ələsgər- 190 / Q. Aslan // Respublika.- 2011.- 4 iyun.- № 115.- S. 7.
5. L.Ə. Mahmud. Ələsgər poeziyasının qüdrəti: Aşıq Ələsgər -190 / Ə. M. Lələdağ // Azərbaycan müəllimi.- 2011.- 1 aprel.- № 12.- S. 13
6. N. Məhəmməd. Dərsi azlar Ələsgərdən dərs aldı... : Aşıq Ələsgər - 190 / M. Nərimanoğlu // Azərbaycan.- 2011.- 2 iyun.- № 117.- S. 7
7. A.Tahir. Qədəm: Aşıq Ələsgər - 190 / T. Abbaslı // Mədəniyyət.- 2011.- 20 aprel.- № 27.- S. 12.

Tərtib edəni: Könül Səmədzadə - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı

Redaktor: Fizurə Quliyeva - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru